# LƏNKƏRAN GÖRÜŞLƏRİ: XATİRƏLƏR, TƏƏSSÜRATLAR




**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***


Hər dəfə dogma yerlərə səfər edəndə həyəcanlanıram. Yaddaşımın uşaq çagından, gənclik dövründən olan xatirələrim canlanır; elə bilirəm ki, elə həyatımın həmin çaglarına qayıdıram.

İnsan üçün vətən və yurd hissləri daha çox onun yaddaşı ilə bağlıdır deyənləri haqlı hesab edirəm. Mənim üçün də Lənkəran yaddaş doğmalığı ilə ruhuma çox bağlıdır. Doğrudur mən 1940-cı ilin yanvar ayında Bakıda doğulmuşam, ancaq II Dünya müharibəsi ilə bağlı olaraq yaşayış yerimiz gah Lənkəranın Gəlmətük kəndi olub, gah da Bakı şəhəri. Ona görə də uşaqlıq çağlarımın, gənclik illərimin xatirələri ata-baba yurdumuz Gəlmətük kəndi ilə də çox bağlıdır.

Lənkəran şəhəri və bütövlükdə rayonun ərazisi sözün həqiqi mənasında gözəllik diyarıdır. Bu yerləri Cənub mirvarisi adlandıranlar çox haqlıdırlar. Bu ərazilərin yaşayış üçün əlverişli olması onun qədim tarixini də şərtləndirir. Bəlləbur qalasının xarabalıqları Yuxarı Nüvədi kəndindəki qədim Əbirlər qülləsi, Şıxakəran kəndindəki Şeyx türbəsi, Lənkəran şəhərindəki Kiçik Bazar məscidi, Güldəstə minarəsi, Xan evi kimi tarixi abidələri bu yerlərə yolu düşənlərin hər birini heyrətləndirir. Əlbəttə, bu adlarını qeyd etdiyim abidələr tam siyahı deyil.

Lənkəranın gözəl iqlimi var, ona görə bu yerlərdə çox dadlı subtropik meyvələr, dünyanın ən ətirli çayı becərilir. Onu da qeyd edim ki, Hirkan Milli parkında dünyanın ən nadir bitki növləri qorunur. Parkın faunası bu yerlərə yolu düşənləri heyrətə gətirir. Sevinirəm ki, bu park təbiət abidəsi kimi dövlətimizin xüsusi diqqətindədir. Əlbəttə, Lənkəranın təbii gözəllikləri, təbiət və tarix abidələri, həm yerli, həm də xaricdən gələn turistlər üçün xususi maraq doğurur. Əlavə etməliyəm ki, bu yerlərin təbii, mineral suları, gözəl havası istirahət zonalarının yaradılmasına da rəvac verə bilir. Azərbaycanda məçşhur olan istirahət mərkəzlərinin arasında Lənkəranın istirahət yerlərinin də adı çəkilir.

Əlbəttə, mənim üçün daha qiymətlisi, daha əzizi Lənkəranlılardir. Bu sırada iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun, Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Naziri Səməd bəy Mehmandarovun, Sosialist Əməyi Qəhrəmanı Solmaz Əliyevanın, filologiya elmləri doktoru Mirhaşım Talışlının, şair Şəkər Aslanın, görkəmli uroloq-həkim, professor Mirməmməd Cavadzadənin, Xalq artisti Gülağa Məmmədovun, Münəvvər və Yavər Kələntərlilərin, Həqiqət Rzayevanın, Canəli Əkbərovun və digər mədəniyyət xadimlərinin adları xalqımızın fəxri olan şəxsiyyətlər sırasında çəkilir.

Bu yay bir neçə günümü Lənkəranda keçirmək istəyi ilə iyul ayının 10-da doğmaların - qardaşım Fərhad, qızım Sevinc, nəvəm Əli və köhnə məhəllə dostum Böyükağa ilə doğma yerləri ziyarət üçün səfərə çıxdım. Həm də qohumum Xandadaş Babayevin 40 məclisində iştirak etmək istəyirdim.

Əvvəlcədən vaxtımı elə planlaşdırmışdım ki, Lənkəranın tanınmış ziyalıları ilə də görüşümə vaxt olsun. Elə bu məqsədlə də iyul ayının 11-də Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin iqamətgahına gəldim. Burada məni bölmənin sədri yazıçı Qafar Cəfərli qaşrıladı. O məni əvvəlcə bölmənin fəaliyyət yeri ilə tanış etdi. Son vaxtlar burada aparılan təmir və bərpa işlərindən danışdı. Xeyli iş görüldüyünü dedi. Mən də mənzərə ilə tanış oldum. Həqiqətən, cənub bölgəsinin yazıçıları üçün yaxşı şərait yaradılıb. Şübhəsiz, burada Qafar Cəfərlinin təşəbbüskarlığını və zəhmətini ayrıca qeyd etməliyik.

Söhbətimiz xeyli çəkdi. Biz respublikadakı quruculuq işlərindən də danışdıq. Torpaqlarımızın erməni vandallarının işğalından azad olunmasını təəssüratlı duyğularımızla bir daha xatırladıq. Şəhidlərimizi də unutmadıq. Onların xatirəsini yad etdik. Vətən müharibəsinin qəhrəmanlarını bir-bir yada saldıq. Və fəxr etdik ki, cənub bölgəsinin igid oğulları da Azərbaycan bütövlüyü uğrunda savaşda canlarını verməkdən belə çəkinmədilər. Söhbətimizin sonunda Qafar Cəfərli iki kitabını mənə hədiyyə etdi: "Saatın 61-ci dəqiqəsi" hekayələr və publisistik yazılardan ibarət kitabı və "Tanrının göz yaşları" romanı. Bu kitablar mənim üçün çox dəyərli hədiyyə idi. Xüsusilə də Qafar Cəfərlinin yazdığı səmimi avtoqraflar zövqümü oxşadığı üçün məndə dərin təəssürat oyatdı. Əlbəttə, mən də öz kitablarımı ona bağışladım. Yazıçılar Birliyinin Lənkəran bölməsindəki nailiyyətinə yeni uğurlar dilədim.

Beləliklə, Lənkəranın "Xan bağı" adlanan istirahət guşəsindəki görüşə müasirlərimiz və tanınmış qələm sahiblərindən 30 nəfərdən çox yazar gəlmişdi. Tədbiri elə Qafar Cəfərli özü açdı. İkimizin aramızdakı söhbətlərlə bağlı təəssüratlarını bir də yada saldı və tərcümeyi-halımın qısa xülasəsini iştirakçılara çatdırdı. Sonra sözü şair Ağamir Cavada verdi.

Ağamir Cavadla mənim köhnədən yaradıcılıq əlaqələrim var. Onun kitablarını nəşr etmişəm. Və nəşr etdiyim kitablarından biri haqqında geniş və əhatəli yazı ilə "Kredo" qəzetində çıxış etmişəm. Bir sözlə, köhnə dostlar bir-birini yaxşı tanıdığı üçün Ağamir Cavadın dəyərli məruzə təsiri bağışlayan qeydləri çox zəngin oldu. O, mənim tərcümeyi-halımın artıq mənim üçün tarixləşmiş səhifələrini çevirdi. Maraqlı məqamlara canlı nitqi ilə işıq saldı. Poliqrafiya sahəsindəki uğurlarını isə xüsusi qeyd etdi. Haqqımda yazılmış kitabları bir-bir sadaladı. Fatma Həsənqızının, Sevda Əlibəylinin kitablarına çıxışında xüsusi yer ayırdı. Dostum Əli Rza Xələfli və Ceyhun Zallının birgə müəllifliyi ilə nəşr olunmuş "Böyük portretin işığı" ikicildliyi üzərində də dayandı. Bu kitabların bəzi məziyyətlərini səriştə ilə təhlil etdi. Şübhəsiz, bu zaman onun Əli Rza Xələflinin redaktorluğu ilə nəşr olunan "Kredo" qəzetinin mənim yaradıcılığıma diqqətini də göstərməsi məndə məmnunluq yaratdı. Sonra Lənkəranın tanınmış ziyalıları bir-bir çıxış etdilər.

***(Davamı 11-ci səhifədə)***















# LƏNKƏRAN GÖRÜŞLƏRİ: XATİRƏLƏR, TƏƏSSÜRATLAR

*(Əvvəli 10-cu səhifədə)*

Gülnarə Əsədli Astaradan gəlmişdi. **O, bu yaxınlarda Astara şəhidləri haqqında yazdığı kitabı bizim "Bakı mətbəəsi"ndə çap etdirmişdi.** O, öz çıxışında mətbəənin işçilərinin ona göstərdiyi diqqət və qayğı haqqında iştirakçılara danışdı. Və əlbəttə, həm də mənə də minnətdarlığını bildirdi.

Jurnalist Gülnarə xanımın, jurnalist Etibar Əhədin informasiyaları da dinləyicilərdə xüsusi maraq doğurdu. Filologiya üzrə fəlsəfə doktoru, dosent, şair Elşad Səfərli mənim son illərdəki ədəbi fəaliyyətimə öz çıxışında xüsusi diqqət yetirdi. Onun elmi fəaliyyətimin nəticəsi olaraq "Kitab çapı", "Kitab gözəlliyinin elmi mahiyyəti" və digər əsərlərimin poliqrafiya elminə dair nadir nümunələr olduğunu qeyd etməsi qəlbimdə xüsusi fərəh hissi doğurdu. Bildim ki, yazılan təkcə mədəniyyətimizin, poliqrafiya elmimizin fondunu zənginləşdirmir. Həm də müəllifin özünün fəaliyyətinin izi kimi yadda qalır. Elşad Səfərli mənim "Biblioqrafiya"mla da yaxından tanış olduğunu bildirdi. Bundan sonra bədii yaradıcılığım haqqında da söz açdı. Ötən illərin əhvalatları, yumorlu və satirik hekayələrimin məziyyətlərini tədqiqatçı səriştəsi ilə şərh etdi. O, çıxışının xeyli hissəsini "Kredo" qəzetində dərc olunan ədəbi-publisistik məqalələrimin təhlilinə diqqəti yönəltdi. Və ədəbi publisistik yazılarımı bütün yaradıcılığımın yeni sahəsi kimi dinləyicilərə çatdırdı.

Şair Nəriman Azəri Astaradan gəlmişdi. Astarada yaşayan şair, yazıçı və jurnalistlərin salamlarını çatdırmaqla məni çox sevindirdi. Onun da poliqrafik və ədəbi fəaliyyətimlə bağlı qeydləri yaddaşımda həmişə yaşayacaq. Əlbəttə, digər çıxış edənlərin - Teyyub Rzayevin, Xudaverdi Cavadın, Musanın, İdrakın, İltifat Əhmədovun, Əlmərdanın, Fərhadın, qızım Sevinc xanımın, əməkdar məşqçi İdris Dadaşovun, köhnə məhəllə qonşum, dostum Böyükağanın çıxışları da ruhumu qanadlandırdı. Bir daha hiss etdim ki, doğma adamların arasındayam.

Mən yuxarıda qeyd etdim ki, Bakıda doğulmuş olsam da, uşaqlıq çağlarımın xeyli hissəsi Gərmətük kəndində keçib. Bu kənd mənim yaddaşımı çox ağrılı səhifələrində yaşayır. Ancaq hər dəfə Lənkərana yolum düşəndə bu kəndə mütləq gedirəm. Babamın, atamın yurdunu ziyarət etmək əslində mənəvi borcumdur. Doğrudur, indi nəsillər dəyişib, kənddəki yeni nəslin adamlarının çoxunu şəxsən tanımıram. Amma qabağıma çıxanda üz cizgiləri, görünüşləri, hətta danışıqları ilə hansı nəslə mənsubluqlarını, kimin övladları olduqlarını təyin edə bilirəm. Əlbəttə, hamısı olmasa da, çoxunu. Babam Hüseynin, atam Muğdatın, nənəmin, anamın məşəqqətli, əzablı günləri bu kəndlə bağlıdır. Hələ mən anadan olmadığım zamanda nəslimin başına gətirilən müsibətlər, repressiya, sürgün cəzaları deyilənlərdən, yazılanlardan təzədən yaddaşıma qayıdır.

Gör zaman necə qəddar olub ki, eyni kəndin sakinləri bir-birinə qarşı zalımcasına münasibət göstəriblər. Evimizin uçurulması, atamın, babamın Sibirə sürgünü, nənəmin göz yazları ilə doğmalarını əzab yerlərinə yola salması... bütün bunlar sanki şahidi olduğum əhvalatlar kimi gözlərimin önündə canlanır.






Uşaqlığımın keçdiyi həyət, anamın bicara getməsi, qardaşlarımın, mənim evdə himayəsiz qalmağımız, böyük qardaşım Xudadadın qayğıları - bütün bunlar çox ağrılı romanın səhifələri kimi indi Fatma Həsənqızının "Acılı-şirinli günlər" əsərindən oxunur.

Onu da qeyd edim ki, həyatımın diqqətdən kənarda qalması barədə gileyli ola bilmərəm. Həm istehsalat fəaliyyətim, həm də elmi-ədəbi yaradıcılığım müasirlərim tərəfindən qədərincə qiymətləndirilib. Ancaq neyləsəm də, əzablı günlərin xronikasını yada saldıqca insanın yaddaşı gizildəyir. Mən nəyə nail olmuşamsa, öz bacarığım sayəsində, çalışqanlığımla nail olmuşam. Amma bizim ailəmizi yerindən-yurdundan didərgin edənlərin heç indi izi-tozu da qalmayıb. Onları bir xoş xatirə ilə yada salan da yoxdur. Haqqımda yazılan cild-cild kitablar, poemalar, şeirlər mənim kimliyimi təsdiq edən mənəvi sənədlərdir.

Kəndin içində bu ağır təəssüratlarla, yaddaşımın mənə qaytardığı xatirələrlə gedirdim. **Bu kənddən olan dostum Sərhəd Məmmədovun xatirəsi də mənim üçün əzizdir. İnsanlığın birinci şərti də bundan ibarətdir ki, ona doğma olan insanların xatirəsini uca tutur, adını qəlbində ehtiramla yaşadır. Sərhəd Məmmədovun ailə üzvlərinə başsağlığı verdim.**

**Həyat yoldaşımın qohumlarının da bir çoxuna baş çəkdim. Qaynatamın həyətində qohumlarla görüşlər çox təsirli oldu. İndi həmin evdə oğlu Qasid ailəsi ilə yaşayır. Limon ağaclarının arasında yaxşı bir çay süfrəsi arxasında keçmişi, olub-keçənləri yada saldıq. Zamanın bir çox düyünlərini burada açmağa çalışdıq.**

Hər səfər insan həyatının təəssüratları ilə yadda qalır. Mənim Lənkəran səfərim də beləcə həyatımın maraqlı səhifələrinə çevrildi. Lənkəranda yazıçılarla görüşdə "Xan bağı" istirahət mərkəzindəki çay süfrəsi arxasındakı canlı dialoqlar, çəkilmiş foto-şəkillər, nisbətən həyatının müəyyən dövrləri ilə tanış olan adamların xatirələri yəqin ki, heç vaxt unudulan deyil.

Lənkəran meşələrində, xüsusilə Hirkan qoruğunda Dəmirağacı deyilən bir ağac var. Onun kökləri çox dərinlərə işləyir. Özü də nəhəng qolu, budağı ilə, şahanə görkəmi ilə ona baxanları heyrətə gətirir. Kəsmək, qırmaq çətin olduğu kimi bu ağaclar təbiətin tufanlarına, küləyinə, selinə, suyuna da davam gətirir. Düşünürəm ki, bu ağaclar ona görə belə qüdrətlidir ki, özünə uyğun təbiətdə bitib, boy atıb. Kökləri doğma torpağa işləyib. Gücünü də doğma torpaqdan alır.

Mən insanları da elə-beləcə təbiətin canlı abidəsi olan ağaclara bənzədirəm. Nə qədər ki, dogma insanlarla əlaqələr var, nə qədər ki, həyatın gətirdiyi çətinliklərə özünə güvənclə sinə gərirsə, bir o qədər də dogma insanların inamlarına, sədaqətlərinə güvənir. Ona görə də həyatın əzabları, iztirabları bəzən qarşılaşdıqları haqsızlıqlar, kökü, varlığı vətənə bağlı olan, yurda bağlı olan insanları sarsıda bilmir.





İndi iş yerimə qayıtmışam, həyatımın bu çağında qəlbimi fərəhləndirən Lənkəran görüşləri ruhumu necə qidalandırır, necə mənə qol-qanad verir - bunu özüm hiss edirəm.

Yaşıma güvənərək, həyat təcrübəmə söykənərək insanlara deyərdim ki, dogma yerləri unutmayın, uzaqda qalmış doğmalarınızla vaxt tapan kimi görüşün. Həyatınız daha zəngin olar, ömrünüz daha işıqlı olar.

***01.08.2022***